

QABİL DƏRDLİ

## ONSUZ DA...

Onsuz da ömrümün payızındayam,
Qorxutma gələcək yağışla məni.
Dönməsəm o yoldan, bil yaxındayam,
Bir az anla məni, bağışla məni...

Qəlbimdə uyuyur, çiçəkli bahar,
Dondurmaz nə boran, nə tufan, nə qar...
Qorxuram tək sənin gözlərindən, yar,
Buz edər bir soyuq baxışla məni...

## DEMƏDİYİM NƏĞMƏ

Bilmirəm ki, axı necə gəzirsən,
Ətəyindən tökmədiyin daşla sən.
Gözləyəcəm pəncərənin altında,
Qovala sən, acıla sən, daşla sən.

Düşünmə ki, nəğmə qoşum mən sənə,
Sən də pərdə arxasından süz məni.
Bu yaşımda oxusam da xeyri nə,
Cavanlıqda demədiyim nəğməni.

Kim bilər ki, düşmüşəm mən peşinə,
Boynu bükük dayananda vaxt durur.
İndi məni görənlər də düşünər,
İtiribdir, bəlkə nəsə axtarır.

İlk görüşdən illər keçib, a dərdim.
Qara gözlər təslim olub qırışa.
İnan, yenə dünyaları verərdim,
Yanağından alacağım öpüşə.

## MƏNİ ELƏ SEV Kİ...

Deyirsən, sevirəm, həm də ki, lap çox...
Sən dedin, bax, mən də inandım sənə...
Deyirsən, sevirəm, həm qədəri yox,
Həm də ki, ömürlük bağlandım sənə...

Əzizim, bilirsən, məni necə sev?..
Yalansız, riyasız bir nağıl kimi...
Payını özgəylə bölüşməyəcək
Bir eqoist kimi, bir paxıl kimi...

Bu dünya durduqca inanim sənə,
Etibarım sənin sözlərin olsun.
Yaxında, uzaqda olsaq da yenə,
Elə sev, and yerim gözlərin olsun.

Sev məni, o əsgi nağıdakı tək,
Al məni atının tərkinə, qaçırt.
Dolanbac yollarda qoyma məni tək,
Bas məni bağrına, könlündə yatirt...

Məni elə sev ki, məhəbbətinin
İstisi bəs etsin ikimizə də.
Məni elə sev ki, ölənə qədər,
Sevdasl qoy yetsin ikimizə də...

## TƏK SƏNİ DÜŞÜNÜRƏM

Oturub gecənin qaramatında,
Yenə də tək səni düşünürəm mən.
Bir sərin küləyin, mehin altında
Yenə də tək səni düşünürəm mən.

Külək tellərini saçaqlayaydı,
Tellərin boynumu qucaqlayaydı.
Mən də o telləri daraqlayaydım,
Yenə də tək səni düşünürəm mən.

Dayanmışıq sanki, sənlə üz-üzə,
Sevgimi verməsəm bir an biruzə.
Azacıq nəm dolar o ala gözə...
Yenə də tək səni düşünürəm mən.

Sərilim yoluna bir xalı kimi,
Gözləyim aşiqin vüsalı kimi.
Olsa da bir körpə nağılı kimi,
Yenə də tək səni düşünürəm mən.

## QOLUMUN SƏN TUTAN YERİ

Gülüm, söylə neyçün mənə,
Ayrılığı gördün rəva?
Necə qıydın sevdiyinə,
Sənsizliyi, a bivəfa?

Sənsiz günəş də gülməyir,
Darıxır bu cığırlar da.
Küsüb, bahar da gəlməyir,
Sular donub çuxurlarda.

Diqqətsiz olmuşam mən də,
Baxmıram ki, ilişərsən.
Qorxmuram ki, qarda birdən,
Büdrəyərsən, sürüşərsən.

Səninlə getdiyim yollar
Keçilməzə dönüb indi.
Bir birinə keçən qollar
Yanımızda donub indi.

Gözüm baxır, görmür yeri,
Çatışmayır bir "Sən" məndə.
Qolumun sən tutan yeri,
Üşüyür mən yol gedəndə...

## BİLƏ-BİLƏ GETDİM ORA

Getdim bu gün həmin yerə...
O yerdə ki, görüşərdik...
Hər gün orda ayrılanda,
Baxışardıq, gülüşərdik...

O yerdə ki,
səndən başqa hər şey eyni...
O yerdə ki,
yüz-yüz gözəl
Yenə güllü, al geyinib...

Bilirdim ki, yoxsan orda...
Bilirdim ki, gəlməyəssən...
Bilirdim ki, bir az getmiş,
Ayaqqabı bağlarını
düzəltməkçün enməyəssən.
Bilirdim ki, hey arxanca
Baxdığımı bilə-bilə,
Çevrilibən, dönməyəssən...

Amma səni hiss elədim
Yetim qalan baxışımda...
Amma səni hiss elədim
Sənsiz qalan yaddaşımda...
Amma seni hiss elədim...
Yenə, yenə hiss elədim,
Yanağıma soyuq-soyuq,
Damcılayan göz yaşımda...
Bilərəkdən getdim ora...

## O PƏNCƏRƏ, BİR DƏ SİZ

Küçənizdən keçirdim,
Açıq idi qapınız.
Arasından boylandım,
Evdəydiniz hamınız.

Səs-küyünüz gəlirdi,
Gah yavaşdan, gah bərkdən.
Hamı deyib, gülürdü,
Sevinirdi ürəkdən.

Görünürdün arabir,
Pəncərədən, pərdəsiz.
Nə gözəl mənzərədir,
O pəncərə, bir də, siz...

Böyük maşın var idi,
Qapınızda bir gün də.
Keçməyə yol dar idi,
Qab-qacaq yol içində.

Böyük, kiçik yığışıb
Bu evdən köç etdiniz.
Necə hamı sığışıb
Bir ürəyə getdiniz?...

Təzada bax hələ bir,
Pəncərələr pərdəsiz.
Nə acı mənzərədir.
O pəncərə, bir də siz...